**Şəfiqə Səfər qızı Məmmədova**

**UOT:330.1; JEL: E20.**

# Milli sərvətin qiymətləndirilmə zərurəti, istiqamətləri və problemləri

***Xülasə***

*Məqalədə müasir dövrdə milli sərvət və onun qiymətləndirilməsi sahəsində mövcud problemlərin aşkarlanması, milli sərvətin və rifahın kəmiyyətcə dəyərləndirilməsinin müxtəlif sistemlərinin tədqiqi və tətbiqi məsələləri, ölkənin milli sərvəti və onun tərkib elementlərinin struktunun işlənməsi və bütün bunlarla bağlı təklif və tövsiyələr verilmişdir.*

***Açar sözlər:*** *milli rifah, milli sərvət, aktivlər, milli hesablar sistemi, qiymətləndirmə, qeyri-maliyyə, qeyri-maddi, sosial və maliyyə aktivləri, əsas, təbii, insan, maliyyə kapitalı.*

## Giriş

Milli sərvət (MS) ölkənin iqtisadi potensialının və vəziyyətinin, millətin rifahının ən ümumi inteqral göstəricisi olmaqla, əsas makroiqtisadi kateqoriyalardan biridir. Milli sərvət ölkədə dayanıqlı inkişaqfın əsası olmaqla, iqtisadi artımın əsas faktorlarını xarakterizə edir. Ümumi daxili məhsul (ÜDM), milli gəlir və nəticədə milli sərvətlə birbaşa bağlı olan iqtisadi artım ölkədə real həyat səviyyəsini yüksəltməklə, cəmiyyətə təqdim olunan ictimai nemətlərin həcmini artırır. Deməli, MS iqtisadi inkişafın bazası və eyni zamanda onun nəticəsidir. Beləliklə, MS-in strukturu, həcmi, keyfiyyəti, onun səmərəli istifadəsi ölkənin iqtisadi və sosial inkişafının səviyyə və keyfiyyətini və bütövlükdə milli iqtisadiyyatın rəqabətqabiliyyətini müəyyən edir. Milli sərvət anlayışı altında əmtəələrin və xidmətlərin istehsalını və insanların həyatını təmin edən ölkənin bütün aktivlərinin cəmi başa düşülür.Ölkə iqtisadiyyatının vəziyyəti və iqtisadi siyasətin işlənməsi üçün milli sərvətin strukturu və dinamikasının tam və obyektiv şəkildə qiymətləndirilməsi vacib və aktual məsələlərdən hesab edilməlidir.Milli sərvətin qiymətləndirilməsinin əsas problemi onun tərkib elementlərinin hər birinin ayrılıqda dəyərləndirilməsinin mürəkkəbliyi ilə bağlıdır.Qeyd etmək lazımdır ki, milli sərvətin qiymətləndirilməsi həm metodoloji baxımından, həm də informasiyaların toplanıb əldə edilməsi baxımından çox mürəkkəb bir prosesdir. Ölkə statistikasında milli sərvətlə bağlı məlumatların olmaması, uyğun informasiyaların əldə edilməsi problemləri bu mürəkkəbliyi bir daha artırır.



## Milli sərvətin qiymətləndirilməsi problemləri

MS-in yaradılması və səmərəli istifadəsinin aktual sosial problemlərinin həlli, fasiləsiz iqtisadi artımı təmin etməyə və ölkənin yeni sosial istiqamətli iqtisadi modelini yaratmağa imkan verir [1; s. 9]. Bu isə birbaşa onun dəyərləndirilməsi ilə bağlıdır. Qeyd etmək lazımdır ki, müasir dövrdə MS-in qiymətləndirilməsinin metodoloji, informasiya, milli təhlükəsizlik və s. problemləri mövcud olmaqda davam edir. Digər səbəblərdən, o cümlədən milli sərvətlə bağlı ölkə statistikasının inkişafının lazımi səviyyədə olmaması, təbii resursların, milli-mədəni dəyərlərin və milli sərvətin digər tərkib elementlərinin dəyərinin müəyyən edilməsinin mürəkkəbliyi, böyük həcmdə əmək tutumlu informasiyaların əldə edilməsi çətinliyi, maliyyə çatışmazlığı, uçot və hesabatların beynəlxalq standartlara uyğunlaşdırılması, iqtisadiyyatda bazar dəyişikliklərinin təkmilləşdirilməsi problemləri və s. səbəblər üzündən həqiqi mənada MS-in dəyərləndirilməsi problemli məsələ olaraq qalır. Hal-hazırda bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda da MS-in qiymətləndirilməsi həyata keçirilmir. Belə ki, 2005-ci ildən Azərbaycan Respublikası, Dövlət Statistika Komitəsi (DSK) tərəfindən "Milli Hesablar Sistemi-1993" (MHS-1993) əsasında dəyərləndirilən MS-in qiymətləndirilməsi dayandırılmışdır. Qeyd etmək lazımdır ki, 1990-2004-cü illər ərzində DSK tərəfindən MS-in

*©Şəfiqə Səfər qızı Məmmədova Sumqayıt Dövlet Universiteti i.f.d.,dos. E-mail unvanı shafiga_mammadova@mail.ru*
*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

qiymətləndirilməsi onun bütün tərkib hissələri üzrə deyil, yalnız aşağıdakı bölmələri üzrə həyata keçirilmişdir [2]: əsas kapital, əsas istehsal fondları, əsas qeyri-istehsal fondları, maddi dövriyyə vəsaitlərinin ehtiyatları, uzun müddətli istehlak mallarının istifadəsi (əhalinin ev əmlakı) və qeyri-maddi aktivlər. 2004-cü ildə ölkənin MS-in həmin bölmələr üzrə dəyəri cəmi 34251,5 mlyn.manat həcmində olmuşdur. Ölkənin milli sərvətində əsas kapitalın (əsas fondlar, mal-qara daxil olmaqla) 1996-2004-cü illərdə xüsusi çəkisi orta hesabla 86,9% olmuşdur [3; s. 61]. Buna əlbəttə həmin dövrlərdə əsrin müqaviləsilə bağlı ölkənin əsas kapitalına böyük həcmdə investisiya qoyuluşları da səbəb olmuşdur. Göründüyü kimi, həmin dövrlərdə milli sərvət demək olar ki, əsas kapitaldan (əsas və qeyri-əsas fondlar) ibarət olmuşdur. Halbuki, Dünya Bankının XX əsrin sonlarındakı qiymətləndirmələrinə görə milli rifahın yaradılmasında insan kapitalının 64%, əsas kapitalın 16%, təbii kapitalın isə 20% rolu vardır. Müasir dövrdə isə bir çox inkişaf etmiş ölkələrdə, elm tutumlu yeni innovasiyalı iqtisadiyyatın inkişafı ilə əlaqədar olaraq MS-də insan kapitalının payı yüksələrək 70-80%-i ötmüşdür [4]. Yuxarıda qeyd edilən dövrlərdə Azərbaycanın MS göstəricisində maddi qeyri-istehsal aktivləri kimi çıxış edən torpaq, yeraltı-yerüstü sərvətlər, faydalı qazıntılar, təbii bioloji və su resursları, bir sözlə təbii resurslar, həmçinin monetar qızıl, qiymətli kağızları, valyutanı, depozitləri və s. özündə birləşdirən maliyyə aktivləri nəzərə alınmırdı. Müasir dövrdə inkişaf etmiş ölkələrin MS-in yaradılmasında ən böyük rola malik olan insan kapitalının qiymətləndirilməsi və onun MS-də xüsusi çəkisindən ümumiyyətlə söhbət açılmırdı. Deməli, 2005-ci ildən sonra Azərbaycanda MS-in qiymətləndirilməməsilə yanaşı, məhz həmin dövrə qədər olan dəyərləndirmələrdə MS-in digər əsas tərkib hissələri də nəzərə alınmırdı. Məlumdur ki, ölkənin əsas makroiqtisadi göstəriciləri olan ÜDM, ümumi milli məhsul (ÜMM), adambaşına düşən ÜDM, iqtisadi artım və s. makroiqtisadi göstəricilərlə ölkənin təbii, insan və maliyyə kapitalının ölçülməsi nəzərə alınmır. Bu səbəbdən də fikrimizcə, həmin göstəriciləri özündə əks etdirə bilən MS-in tədqiqi, onun tərkibinin tam formada müəyyən edilməsi, MS-in qiymətləndirilməsinin ölkəmiz üçün aktuallığı bir daha meydana çıxır.



Nobel mükűfatı laureatı, ÜDM göstəricisinin yaradıcısı olan Saymon Kusnes hələ 1934-cü ildə ABŞ-ın konqresində çıxışı zamanı qeyd etmişdir ki, millətin rifahını çətin ki, adambaşına düşən gəlirlə ölçmək mümkün olsun. Bu mənada əsas makroiqtisadi göstəricilərdə qeyd edilənlərin nəzərə alınmaması hələ də bir çox ölkələrdə, o cümlədən Azərbaycanda da MS-in yuxarıda qeyd edilən tərkib elementlərilə birlikdə ölçülməsi, qiymətləndirilməsi zərurətini yaratmış və bu problem ölkə iqtisadiyyatı üçün hələ də qalmaqdadır. Beləliklə, fikrimizcə, MS-in tam formada tərkib elementlərinin müəyyən edilməsi, onun dəyərinin qiymətləndirilməsi ölkənin iqtisadi inkişafı, millətin indiki və gələcək rifahı baxımından aktuallığı bir daha meydana çıxır. Deməli, MS-in dəyərləndirilməsi - ölçülməsilə yanaşı, onun müəyyən dövrdə artması və eyni zamanda azalması ilə əlaqədar, onun dinamikasının müntəzəm izlənməsi, millətin, xalqın, bütövlükdə ölkənin məhz siyasi-tarixi, strateji inkişafı baxımından daha məqsədli hesab edilməlidir. Ən azından, MS ölkənin makroiqtisadi göstəricilərinə münasibətdə əlavə informasiya verə bilər. Əlbəttə, yuxarıda qeyd edildiyi kimi, bunun bir çox səbəbləri vardır. Bu hər şeydən əvvəl, ölkədə hal-hazırda MS-in qiymətləndirilməsinin digər makroiqtisadi göstəricilərə nisbətən böyük əmək tutumlu, onun hesablanması üçün tələb edilən informasiyaların böyük həcmli olması, bir sıra məlumatların əldə edilməsinin təhlükəsizlik, maliyyə və s. problemləri və s. səbəblərlə əlaqədardır.

**Milli sərvətin dəyərləndirilməsi sistemləri**

Qeyd etmək lazımdır ki, XX əsrin sonundan və müasir dövrdə statistikanın inkişafı ilə əlaqədar olaraq, MS-in praktiki cəhətdən tədqiqatı və qiymətləndirilməsi mümkün olmuşdur.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Hal-hazırda milli iqtisadiyyatın inkişafının, ölkənin dəyərinin, o cümlədən MS-in kəmiyyətcə qiymətləndirilməsinin aşağıdakı müxtəlif sistemləri meydana gəlmişdir və onların bəzilərindən müasir dövrdə baza kimi geniş istifadə olunur. Aşağıda qısa şəkildə qeyd ediləcək müxtəlif metodoloji sistemlər içərisində Milli Hesablar Sistemi (MHS) əsas rol oynayır.

**Milli Hesablar Sistemi (MHS-2008)**

Müasir dövrdə bütün ölkələrin makroiqtisadi göstəriciləri, o cümlədən MS göstəricisi MHS-2008 sisteminə əsasən hesablanır. MHS-2008 iqtisadi siyasətin, makroiqtisadi təhlilin və elmi tədqiqatların işlənməsi üçün müəyyən edilən, hərtərəfli, qarşılıqlı razılaşdırılmış və mütəhərrik makroiqtisadi hesablar sistemini özündə birləşdirən konseptual bir bazadır. MHS-2008 BMT-nin uyğun rəhbərliyi tərəfindən işlənmiş və ölkələrə tətbiqi tövsiyə olunmuş milli hesabların əsas beynəlxalq standartıdır. MHS-2008 BMT, Avropa Komissiyası, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Beynəlxalq Valyuta Fondu və Dünya Bankı qrupu tərəfindən işlənmiş və nəşr edilmişdir [6]. Qeyd etmək lazımdır ki, MHS-2008-in BMT-nin Statistika komissiyası tərəfindən onun qırxıncı sessiyasında milli hesablar üzrə beynəlxalq standart kimi qəbul edilməsinə baxmayaraq, onun bütün dünya ölkələrinə öz milli hesablarını bu sənəd əsasında işlənilməsi tövsiyyə kimi təklif edilmişdir. Deməli, MHS-də hər bir ölkə müəyyən göstəricilərin hesablanması üzrə əsas bazanı gözləməklə, sərbəstliyə malikdir. MHS-2008, MHS-1993-ün yenilənmiş variantı olaraq, özündə iqtisadiyyatın inkişafı və təşkili, yeni tələblər və elmi tədqiqatlardakı yeniliklərlə bağlı müasir tələbləri əks etdirir. MHS beynəlxalq səviyyədə iqtisadi nəzəriyyə prinsiplərinə əsaslanmış, makrosəviyyədə hesabların və hesabatların aparılmasının dəqiq qaydalarına uyğun iqtisadi fəaliyyət göstəricilərinin hesablanması üzrə tövsiyyələrin standart yığımıdır [7]. Ümumilikdə, MHS bazar iqtisadiyyatında adekvat milli hesabat olmaqla, makrosəviyyədə qarşılıqlı əlaqədə olan statistik göstəriciləri özündə birləşdirir. Bu göstəricilər sistemi milli iqtisadiyyatın fəaliyyətinin strukturunu, nəticələrini və milli təsərrüfat sistemində mövcud olan vacib qarşılıqlı əlaqələri xarakterizə edən hesabların və balans cədvəllərinin müəyyən yığımı formasında qurulur.



MHS-in əsas göstəricilərindən biri ölkənin digər makroiqtisadi göstəricilərlə yanaşı (ÜDM, ÜMM, Milli gəlir və s.), MS hesab olunur. MS ölkənin bütün rezidentlərinin kapitalının (xalis aktivlərinin) dövrün əvvəlinə və sonuna vəziyyəti kimi təyin olunur. MHS-2008-ə əsasən, aktivlər üç qrupa bölünür: qeyri-maliyyə istehsal aktivləri (əsas fondlar, maddi dövriyyə vəsaitləri ehtiyatları və dəyərliləri); qeyri-maliyyə qeyri-istehsal aktivləri (maddi aktivlər kimi: torpaq və su resursları, onların ehtiyatları, qeyri-maddi aktivlər kimi: lisenziya, patent, müəlliflik hüquqları və s.); maliyyə aktivləri (monetar qızıl, xüsusi borcalma hüququ, nəğd pullar, depozitlər, qiymətli kağızlar, ssudalar, sığorta texniki ehtiyatlar və s.). Fikrimizcə, 2-ci bölmədə həm qeyri-maliyyə və qeyri-istehsal aktivləri kimi həm maddi və həm də qeyri-maddi aktivlərin bir bölmədə verilməsi məqsədli deyildir. Müasir dövrdə ölkələrin iqtisadi inkişafının əsas mənbəyi olan insan kapitalının da ayrıca olaraq qeyri-maddi aktiv kimi göstərilməsi onun MS-də yerini müəyyənləşdirməyə imkan verə bilər.

Azərbaycan Respublikasında MS-dən başqa, ölkənin digər makroiqtisadi statistik göstəricilərinin hesablanması da bu sistemə əsaslanır. MHS-in məqsədi istehsal fəaliyyəti nəticəsində təkcə əmtəə və xidmətlərin axınının ölçülməsi (ÜDM və ya xalis daxili məhsul və s.) deyil, həmçinin ölkənin kapitalının, onun iqtisadi sərvətinin (MS) ölçülməsidir. MHS-in aktivlər və passivlər balansında ölkənin maliyyə və qeyri-maliyyə aktivlərinin və passivlərinin (o cümlədən insan kapitalını da nəzərə almaqla) dövrün əvvəlinə və sonuna dəyəri və bütün növ kapitalın (nəticədə MS-in) xalis dəyərindəki dəyişikliklər əks olunur. Ancaq, yuxarıda qeyd etdiyimiz kimi, MHS-in tətbiqi dünya ölkələri, o cümlədən Azərbaycan üçün məcburi

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

hüquqi öhdəlik kimi qəbul edilməməlidir. O, yalnız metodoloji tövsiyyələr olmaqla, ondan hər bir ölkə öz məqsəd və qarşısında duran vəzifələrdən asılı olaraq faydalana bilər.

**Beynəlxalq iqtisadi müqayisələr və tutuşdurmalar sistemi**

BMT çərçivəsində keçən əsrin 60-cı illərinin sonunda BMT-nin İqtisad və Sosial Şurasının qərarına uyğun olaraq "Beynəlxalq iqtisadi müqayisələr" adlı xüsusi proqram işlənmişdir. BMT-nin Statistika Komissiyası tərəfindən işlənən beynəlxalq müqayisələr oxşar əmtəə və xidmətlərin reprezentativ seçiminə və keyfiyyət xarakteristikalarına uyğun olaraq düzəliş edilməsinə əsaslanır [7]. Qeyd edilən sistem əsasında müqayisələrin nəticəsi ÜDM-in və onun tərkib hissələrinin müqayisə olunan valyutada, həmçinin milli valyutanın alıcılıq qabiliyyəti pariteti (AQP) əsasında dəyər həcminin müəyyən edilməsi adlanır. Bu da nəticədə bir çox əmtəə və xidmətlərin həm iqtisadi inkişaf və həm də daxili milli qiymətlər səviyyəsində müqayisələrini həyata keçirməyə imkan verir. Fikrimizcə, beynəlxalq müqayisələr və tutuşdurmalarla bağlı belə yanaşma Azərbaycanın milli valyutasının mübadilə məzənnəsi və AQP arasında əhəmiyyətli fərqin olduğu indiki şəraitdə çox əhəmiyyətlidir.

**Milli rifahın müəyyən edilməsinə Dünya Bankının (DB) yanaşması**

Keçən əsrin sonlarında DB-nin ətraf mühit üzrə Departamentinin mütəxəssisləri tərəfindən işlənmiş davamlı inkişaf indikatorlarının göstəricilərinin təyin edilməsi çərçivəsində hazırlanmış metod hal-hazırda da önəmli yenilik əhəmiyyətini daşımaqdadır. DB-nin dayanıqlı və ya davamlı inkişaf ideyası iqtisadi artımın gələcək nəsillərin marağını nəzərə almasını və onun imkanlarının mövcud nəsillər tərəfindən milli sərvət resurslarının istifadəsi səbəbindən azalmasını nəzərdə tutur. Son dövrlərdə DB-nin genişləndirilmiş bu konsepsiyası çərçivəsində MS aşağıdakı sistem əmələgətirici elementlərlə tamamlanmışdır: təbii kapital, fiziki-istehsal olunan kapital vəqeyri-maddi kapital(insan və institusional kapital) [8-12]. DB konsepsiyasına əsasən təbii kapitala - enerji və mineral resursları, əkin və heyvandarlıq və qorunan ərazilər, fiziki kapitala - maşın, avadanlıq, bina və tikililər, həmçinin şəhər torpaqları, qeyri-maddi kapitala - ölkənin digər aktivləri aid edilir. Belə ki, bu halda qeyri-maddi aktivlər MS ilə fiziki və təbii kapitalın cəminin fərqi kimi müəyyən edilir. Bu zaman MS bütövlükdə faiz dərəcələri və milli gəlir kəmiyyətlərindən meydana çıxmaqla təyin olunur. Qeyd etmək lazımdır ki, DB-nin mütəxəssisləri tərəfindən MS-in tərkib hissələrindən biri kimi çıxış edən sosial kapitalın qiymətləndirilməsi həyata keçirilməmişdir. XXI əsrin əvvəllərində - 2006-cı ildə DB-nin dünyanın 120 ölkəsinin milli sərvətinin qiymətləndirilməsini əhatə edən "Xalqların sərvəti haradadır? 21 əsrin kapitalını ölçməklə" adı altında [11] tədqiqatı meydana çıxdı: DB-nin MS istiqamətində digər tədqiqatı isə 2011-ci ildə "Xalqların dəyişən sərvəti: yeni minillikdə dayanıqlı inkişafı ölçməklə" [12] adı altında həyata keçirilmişdir. Bu tədqiqat dünyanın 152 ölkəsini, o cümlədən Azərbaycanı da əhatə etmişdir. Bu tədqiqat işi 1995, 2000 və 2005-ci illəri əhatə etmişdir. Bu tədqiqata əsasən dünya üzrə toplanmış sərvətdə istehsal olunan kapitalın payı 18%, qeyri-maddi kapitalın payı 77% və təbii kapitalın xüsusi çəkisi isə 5% olmuşdur. Ölkələrin inkişafındakı fərqlərdən, tədqiqatın eksperimental xarakterindən, təbii və qeyri-maddi kapital haqqında tam informasiyanın olmaması ilə bağlı və digər obyektiv səbəblərdən bu tədqiqatın kifayət qədər etibarlı olması haqda müəyyən fikir söyləmək çətindir. Buna baxmayaraq həmin tədqiqata əsasən qeyd etmək olar ki, dünya üzrə sərvət ölkələr arasında son dərəcə qeyri-bərabər paylanmışdır və İEO-da milli sərvətdə qeyri-maddi aktivlərin xüsusi çəkisi digər kapital növlərinə nisbətən çox yüksəkdir. Üçüncü minilliyin əvvəlinə dünyanın bütün ölkələrinin sərvəti 673,6 trilyon ABŞ dolları təşkil etmiş və bu göstərici 1995-ci ilə nisbətən 170 trilyon ABŞ dolları qədər artıq olmuşdur. Beləliklə, XX əsrin sonları və XXI əsrin əvvəllərinə qədər olan metod və yanaşmalardan fərqli olaraq, DB-nin irəli sürdüyü konsepsiyada əsas yenilik kimi MS-də təbii və insan kapitalının nəzərə alınmasını qeyd etmək olar. DB-nin XX əsrin



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sonlarından indiyə qədər davam edən tədqiqatları inkişaf etmiş ölkələrin (İEÖ) və inkişaf etməkdə olan ölkələrin (İEOÖ) MS-nin strukturunu müəyyən etməyə imkan verir. Hal-hazırda bir sıra MDB ölkələrində MS-in bütün tərkib hissələri üzrə tam formada qiymətləndirilməsi həyata keçirilməsə də, Azərbaycandan fərqli olaraq, məsələn Rusiyada, Belarusiyada və s. ölkələrdə MS-in bir sıra bölmələr üzrə dəyərləndirilməsi reallaşdırılmaqdadır [14, 15].

**Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının metodu**

2000-ci ilin avqustunda Gəlirlərin və Sərvətlərin tədqiqatçılarının Beynəlxalq Assosasiyasının 26-cı ümumi konfransı tərəfindən MS-nin qiymətləndirilməsinin yeni indikatoru: “adambaşına milli sərvət” göstəricisi təklif olundu. Adambaşına ÜDM və MS-in göstəricilərinin hesablanması dünyanın 100-dən çox ölkəsi üzrə həyata keçirilmiş və bunun əsasında da ölkələrin yeni reytinqi müəyyən edilmişdir. Dünya ölkələrinin reytinqi tərtib olunarkən tədqiqatçılar təkcə, ənənəvi göstəriciləri deyil (ÜDM-in miqdarı adambaşına düşən gəlir, istehsalın artım tempi və s.) həmçinin, əmtəə və xidmətlərin istehsal dəyəri, təbii resurslar, intellektual potensial və s. formasında potensial sərvətləri də nəzərə almışlar. Təhlillərin nəticələri göstərmişdir ki, əksər ölkələrdə adambaşına düşən orta gəlir bu göstəricinin orta ümumdünya səviyyəsindən, həmçinin mövcud kapitalın artım tempi əhalinin artım tempi sürətindən aşağıdır. Əlbəttə bunun çox səbəbləri vardır: dünya əhalisinin XX əsrin əvvəllərindən hal-hazırki dövrə qədər təxminən 4-5 dəfə artaraq 7 mlyrd. nəfəri ötməsi, təbii sərvətlər ehtiyatlarının azalması və s. göstərmək olar. Deməli, dünya ölkələrinin əksəriyyəti üzrə milli rifah səviyyəsinin aşağı düşməsi prosesi baş verməkdədir. Bu da öz növbəsində bu ölkələrdə genişləndirimiş dayanıqlı inkişafın təmin olunmasının zəruri olduğunu göstərir. Bu səbəbdən də, fikrimizcə, Azərbaycanın dayanıqlı və davamlı inkişaf konsepsiyasının müasir dövrün tələbləri və inkişafı baxımından işlənməsi və inkişafı zəruri və aktualdır. MS və milli rifahın təyin edilməsi və dəyərləndirilməsi ilə bağlı yuxarıda qeyd edilən əsas sistemlərdən başqa, XXI əsrin əvvəllərində amerikalı alimlərin təklif etdikləri və ÜDM-in alternativ indikatoru kimi çıxış edən həqiqi inkişaf indikatorunu, DB-nin mütəxəssisləri tərəfindən irəli sürülən həqiqi qənaət-yığım indikatorunu (təbii resursların tükənməsi və ətraf mühitin çirklənməsindən yaranan itgilərin nəzərə alınmasından sonra, MS-in yığım sürətini göstərən indeks kimi), FBK adlanan məsləhət auiditor kompaniyasının: “ölkənin dəyərinin qiymətləndirilməsi yığılmış MS, xərclənmiş resurslar üzrə deyil, iqtisadi potensial-iqtisadiyyatın gələcək gəlirləri üzrə həyata keçirilməlidir” kimi yanaşmasını və s. göstərmək olar.

Milli sərvət və onun tam formada tərkib elementlərinin müəyyən edilməsi. Milli rifahın, milli sərvətin dəyərləndirilməsinin yuxarıda qeyd edilən istiqamətləri müxtəlif olsa da, onların hər birinin MS-in qiymətləndirilməsində özünəməxsusluğu vardır. Ancaq hal-hazırda MS-in qiymətləndirilməsinin ən geniş yayılmış və tətbiq oluna bilən sistemləri MHS-2008 və DB-nin konsepsiyalarıdır. Bu iki sistem əsas götürərək və digər yanaşmalar da daxil olmaqla onların müqayisəsi nəticəsində fikrimizcə, MS-i qiymətləndirmək üçün ilk növbədə MS-in tam formada strukturunu və onun tərkib elementlərini müəyyən etmək lazımdır (bax: şəklə). MHS-2008-də qeyd edildiyi kimi, MS-in üç tərkib hissəsini: qeyri-maliyyə istehsal aktivləri, qeyri-maliyyə, qeyri-istehsal aktivləri və maliyyə aktivləri əvəzinə təklif olunan sxemdə göstərildiyi kimi aşağıdakı kimi adlandırmaq məqsədli hesab edilməlidir:

1. Qeyri-maliyyə maddi aktivlər. Məhz bu bölməyə də istehsal və qeyri-istehsal aktivlərini aid etməklə, onların köməyilə uyğun olaraq müasir dövrdə kapital növlərindən olan əsas kapital (istehsal aktivləri) və təbii kapital (qeyri-istehsal aktivləri) anlayışlarının tam iqtisadi mahiyyətini əks etdirmək mümkündür. İstehsal aktivlərindən ibarət olan MS-in əsas kapital bölməsinə iki alt bölməni: əsas fondlar (əsas və qeyri-əsas istehsal fondları), maddi dövriyyə vəsaitləri və dəyərləri aid etmək olar. Qeyri-istehsal aktivləri özündə birləşdirən



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

təbii kapitala ölkənin torpaq resursları (həmçinin, günəş, hava-iqlim) təbii yerüstü və yeraltı sərvətləri - mineral, enerji və bioloji ehtiyatlar və su resurslarını və s. ehtiyatları aid etmək olar. Bütün bunlar da təbii kapitalın mahiyyətini tam şəkildə izah edir.

2. MS-in ikinci bölməsini (DB-nin də yanaşmasını, daha doğrusu insan və institusional kapitalı əhatə etməklə)Qeyri-maddi və sosial aktivlər adlandırmaqla, fikrimizcə, MS-in əsas tərkib hissəsi kimi, aktiv insanlar, intellektual, sosial, institusional, ictimai dəyərlərini, qısaca insan və sosial kapitalın mahiyyətini düzgün əks etdirmək mümkündür. MS-in strukturunda insan kapitalının qeyri-maddi və sosial aktiv baxımından üç ustiqamətdə yer alması onun qiymətləndirilməsi zamanı daha dəqiq yanaşmaya imkan verir. Belə ki, insan kapitalı kimi aktiv insanların bilik, təhsil, ixtisas, intellektual kapital kimi patent, ixtira, NOW-HOW qudvill, lisenziyalar və s. və nəhayət sosial kapital kimi mənəvi-ictimai, sosial, institusional, kommunikativ və s. dəyərləri götürmək olar.

3. MS-in üçüncü tərkib hissəsi həm MHS-2008 və həm də DB-nin yanaşmasına uyğun olaraq ölkənin maliyyə kapitalını (maliyyə vəsaitləri və alətləri) özündə birləşdirən maliyyə aktivləri adlandırılır. Maliyyə aktivlərinin tərkibini də öz növbəsində konkret olaraq üç istiqamətə ayırmaq mümkündür: a) monetar qızıl, qiymətli metallar, xüsusi borc hüququ və s.; b) borc qiymətli kağızları, ssudalar, səhmlər, depozitlər və s. maliyyə alətləri və c) pul-valyuta ehtiyatları. Beləliklə, fikrimizcə MS-in təklif olunan və onun tərkibini tam formada təsvir etməyə imkan verən struktur sxemi MS-in qiymətləndirilməsini daha dəqiq və ayrılıqda hər bir tərkib hissəsini daha rahat hesablamağa şərait yarada bilər. Həmçinin, MS-in tərkib elementlərinin strukturu onu daha əyani şəkildə təsvir və müəyyən etməyə imkan verir. Qeyd etmək lazımdır ki, AR, DSK tərəfindən 2005-ci ildən sonra MS-in Qeyri-maliyyə maddi aktivlər hissəsindən əsas kapital bölməsinin yalnız əsas fondlar üzrə dəyərinin statistikası həyata keçirilir (bax: cədvəl). Cədvəlin məlumatlarından [15,16] belə qənaətə gəlmək olar ki, MS-də əsas fondların 2010-2017-ci illərdə artım tempi yüksələn səviyyədə olmuşdur. Bu dövrlərdə məhz əsas fondlara başlıca olaraq, neft kontraktları ilə bağlı yönəldilən investisiyalar ölkədə ÜDM-i artırmaqla, MS-in səviyyəsinə də müsbət təsir etmişdir.



**Azərbaycanda ÜDM, əsas fondlar və əsas kapitala investisiyaların dinamikası (mly.manat)**

| İllər | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ümumi Daxili Məhsul | 12522,5 | 42465,0 | 52082,0 | 54743,7 | 58182,0 | 59014,1 | 54380,0 | 60425,2 | 70135,1 |
| Əsas fondlar | 33939,3 | 66659,5 | 74186,4 | 84262,4 | 95451,1 | 110677,9 | 124008,4 | 169120,3 | 178931,1 |
| Əsas istehsal fondları | 18225 | 37165 | - | 46769 | 53529 | 61809,4 | 71978,8 | 111009,6 | 123371,1 |
| Əsas kapitala yönəldilmiş vəsaitlər | 5769,9 | 9905,7 | 12799,1 | 15407,3 | 17850,8 | 17618,6 | 15957,0 | 15772,8 | 17430,3 |

Mənbə: Azərbaycan Statistik göstəriciləri, AR, DSK, 2018.

MS-in məhz ÜDM, ölkədə mövcud olan əsas kapital və əsas istehsal fondları ilə də əlaqəli olduğunu nəzərə alaraq, bu göstəricilərin artımının milli rifahın artımına təsirini inamla qeyd etmək olar. Belə ki, ÜDM-in həcmi 2017-ci ildə 2010-cu ilə nisbətən təxminən 1,7 dəfə artmışdırsa, əsas fondların artımı ondan daha yüksək - 2,7 dəfə təşkil etmişdir. Buna əsaslanaraq qeyd etmək olar ki, Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrindən fərqli olaraq, ölkədə MS-in yaradılmasında insan kapitalı və digər resurslara nisbətən əsas kapitalın xüsusi çəkisi yüksəkdir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Nəticə**

- Azərbaycanın milli sərvətinin strukturunun dəqiqləşdirilməsi, müasir siyasi-iqtisadi şəraitdə onun tərkibinə vacib struktur elementlərin (ekoloji-təbii, intellektual kapitalın) və xüsusilə miqdarca təyin edilməsi çətinlik yaradan insan kapitalının daxil edilməsi zəruridir.
- Milli sərvətin tam formada təklif olunan tərkib elementlərinin müəyyən edilmiş strukturunu onun qiymətləndirilməsi üçün daha dəqiq yanaşma metodu kimi qəbul edilməsi məqsədlidir.
- Azərbaycan Respublikası üçün problemli olsa da, milli sərvətin əsas tərkib hissələri kimi çıxış edən əsas, təbii, insan və maliyyə kapitalının hər birinin ayrılıqda və bütövlükdə milli sərvətin həcminin müəyyən edilməsi müasir innovasiyalı iqtisadi inkişafda dünya ölkələri arasında ölkəmizin reytinqinin düzgün müəyyən edilməsi və onun səviyyəsinin, milli iqtisadiyyatın rəqabətqabiliyyətinin artırılması üçün zəruridir.
- Azərbaycanın milli sərvətinin düzgün qiymətləndirilməsi üçün informasiya-statistik əhəmiyyətli məlumatların yığılması, sistemləşdirilməsi, dəqiqləşdirilməsi üçün bu məlumatlara, uyğun dövlət strukturlarında praktiki cəhətdən buraxılış imkanları yaradılmalıdır.
- Milli sərvətin və onun struktur tərkib elementlərinin, həmçinin bütövlükdə milli sərvətin istifadəsinin səmərəliliyinin qiymətləndirilməsi kompleks xarakterdə olmalıdır.
- Ölkədə milli sərvətdən istifadənin iqtisadi-sosial səmərəliliyinin hesablanmasının vacibliyini nəzərə alaraq, onun statistik qiymətləndirilməsi yubanmadan həyata keçirilməlidir.
- Milli sərvətin formalaşmasının müasir ənənəsinə uyğun olaraq, sərvətin əsas mənbəyinin və istiqamətinin sosial və institusional elementlərinin, əsasən strateji inkişafın əsas resursu olan insan kapitalının inkişafına və sosial-intellektual-innovasiyalı iqtisadiyyatın formalaşmasına yönəldilməsi məqsədli hesab edilməlidir.
- Milli sərvətin qiymətləndirilməsi və onun dinamikasının təhlili digər makroiqtisadi göstəricilərlə əlaqəli şəkildə aparılmalıdır.
- Milli sərvətin ölkə üçün həcminin müəyyən edilməsi təkcə tədqiqat xarakterli deyil, əlaqəli strukturların birgə səyi nəticəsində həyata keçirilməlidir və bunun üçün əlverişli şəraitin yaradılması zəruridir.
- Milli sərvətin ilk növbədə həcminin müəyyən edilməsi, daha sonra onun ölkənin sosial-iqtisadi və dayanıqlı-davamlı inkişafına təsirinin araşdırılması, bu təsirin ekonometrik qiymətləndirilməsi qarşıda duran aktual vəzifələrdən hesab edilməlidir.



**Ədəbiyyat**


1. Национальное богатство и национальный продукт. Книга III. К новому качеству экономического роста и справедливому распределению благ. М.: Экономический факультет МГУ имени М.В. Ломоносова, 2016, 272с.
2. Azərbaycan Milli Hesabları, Azərbaycan Respublikası, DSK, Bakı: 2005, 113 c.
3. Məmmədova Ş.S. Azərbaycanda əsas və insan kapitalının təhlili və modelləşdirilməsi: iqt.üzrə fəlsəfə doktoru dissertasiyası. Bakı, 2008, 275 c.
4. Корчагин Ю.А. Человеческий капитал и инновационная экономика. Монография, Воронеж, 2012, 244 с.
5. Azərbaycan Milli Hesabları, Azərbycan Respublikası, DSK /Statistik toplu/, Bakı: 2018, 156 s.
6. Система национальных счетов. Комиссия Европейских сообществ, Международный валютный фонд, Организация Экономического сотрудничества и развития, Организация Объединенных Наций, Всемирный банк, Нью-Йорк, 2009, 1295 с.). (СНС) Номер публикации SNA EA 2008001. Код: ОЭСР 302009191P1. Символ документа ST/ESA/STAT/SER.F/2/Rev.5
7. Рашевская О.А. Методики оценки национального богатства. Науки и образования, Тамбов: Грамота, 2007, № 4(4) с. 162-164.
8. Диксон Дж., Беккес Ж., Гамильтон К., Кант А., Латц Э., Педжиола ХИЖ. Новый взгляд на богатство народов. Индикаторы экологического устойчивого развития. Москва: Весь мир, 2003, 128 с.
9. Kunte A., Hamilton K., Dikon Dj., Clemens M. Estimating National Wealth: Methodology and Results, World Bank, 1998, 44p. URL:


© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

https://millenniumindicators.un.org/unsd/env.Accounting/ceea/archive/Framework/kunte_etal_1998.PDF (müraciət vaxtı: 30.09.2019).

10. Hamilton K. Sustaining Economic Weffare: Estimating Changes in Wealth Per Capita. 2000, 28 p. URL: https://documents.Worldbank. org/curated/ru/575961468739146017/pdf/ multipage.pdf (müraciət vaxtı: 30.09.2019).
11. Where is the Wealth of Nations? Measuring the capitalforthe 21st Century/Elektron resurs/ Dünya Bankının rəsmi saytı. URL: https://siteresources.worldbank.org/INTEEL/214578-111088628964/20748034/All.pdf/
12. The changing Wealth of Nations: Measuring Sustainable Development in the New Millennium. Environment and Development. World Bank 2011, 221 p. https://openknowledge.Worldbank. org/handle/10986/2252... (müraciət vaxtı: 30.09.2019).
13. Долинина Т.Н. Национальное богатство Республики Беларусь: концептуальные подходы к оценке. Труды Белорусский Государственный Технологический Университет (БГТУ), серия 5, №1, 2017 г., с. 20-28.
14. Ладонов В.И. Национальное богатство: Россия на фоне мировых тенденций.Вестник Орел ГИЭТ, 2014, №2(28), 49-53 с.
15. Национальное богатство Российской Федерации. Россия в цифрах, 2017, 61-70 с.
16. Azərbaycanın Statistik Göstəriciləri, AR, DSK, Bakı: 2018, 808s.
17. https.//unstats.un.org/unsd/natioalaccount/docs/SNA2008Russian.pdf

***Шафига Сафар Мамедова***

***Проблемы, направления и необходимость оценки национального богатства***

***Аннотация***

*В статье выявлены существующие проблемы в области национального богатства и его оценки, рассмотрены вопросы, исследования и применения разных систем количественных оценок национального богатства и блага, разработки национального богатства и структуру составных элементов страны в современном периоде. Статье заверщается выводами и предложениями.*

***Ключевые слова:*** *национальное благо, национальное богатство, активы, национальные системы счетов, оценка, нефинансовые, нематериальные, социальные и финансовые активы, основной, природный, человеческой и финансовый капитал.*

***Shafiga Safar Mammmadova***

***Problems, directions and the need to assess national wealth***

***Summary***

*The article identifies existing problems in the field of national wealth and its assessment, considers issues, research and application of different systems of quantitative estimates of national wealth and benefits, development of national wealth and the structure of the country's constituent elements in the modern period. The article ends with conclusions and suggestions.*

***Key words****: national good, national wealth, assets, national systems of accounts, valuation, non-financial, intangible, social and financial assets, fixed, natural, human and financial capital.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 13.01.2020.***
***Çapa qəbul olunub: 16.01.2020.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*